**“Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, sitrus meyvəçiliyinin inkişafı, əhalinin sitrus məhsullarına tələbatının ödənilməsi, kənd əhalisinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədi ilə **qərara alıram:**

1. “Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilmiş Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi hər il, müvafiq olaraq, dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində maliyyə vəsaitinin nəzərdə tutulması üçün zəruri tədbirlər görsünlər.

3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və Dövlət Proqramının icrasının gedişi barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 fevral 2018-ci il
3668

Azərbaycan Respublikası Prezidentinin
2018-ci il 13 fevral tarixli 3668 nömrəli Sərəncamına
Əlavə

**Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018–2025-ci illər üçün**

## DÖVLƏT PROQRAMI

### 1. Giriş

Əhalinin ərzaq məhsullarına tələbatının davamlı şəkildə ödənilməsi məqsədi ilə son illərdə qəbul edilmiş dövlət proqramlarının icrası, aqrar sahənin ixracyönümlü məhsullarının istehsalının təşviqi istiqamətində həyata keçirilən tədbirlər ölkədə ənənəvi kənd təsərrüfatı sahələrinin inkişafında mühüm nəticələrin əldə olunmasına səbəb olmuş, bölgələrdə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına etibarlı zəmin yaratmışdır.

Kənd təsərrüfatında özünəməxsus yeri olan sitrus meyvə bitkilərinin becərilməsi üçün ölkəmizin cənub bölgəsində əlverişli təbii iqlim şəraitinin və ənənələrin mövcudluğu, bu sahənin yüksək iqtisadi səmərəliliyə və ixrac potensialına malik olması sitrusçuluğun inkişaf etdirilməsini zəruri edir.

“Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli Sərəncamına uyğun olaraq hazırlanmış “Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı” (bundan sonra – Dövlət Proqramı) ölkəmizdə sitrus meyvəçiliyinin inkişafına dövlət dəstəyinin gücləndirilməsinə, bu sahənin potensial imkanlarından səmərəli istifadə edilməsinə, sitrus meyvələrinin istehsalının stimullaşdırılmasına yönəldilmişdir.

### 2. Azərbaycanda sitrus meyvəçiliyinin mövcud vəziyyəti

Sitrus bitkiləri qrupuna aid olan naringi, portağal və limon müvafiq xarici mühit və xüsusi texnoloji qulluq tələb etdiyi üçün Azərbaycanda məhdud ərazidə (*Lənkəran-Astara* iqtisadi rayonu) becərilməsinə baxmayaraq, sitrus meyvələrinin istehsalı ölkənin kənd təsərrüfatının inkişafında böyük əhəmiyyət kəsb edir.[1]

Azərbaycanda sitrus meyvəçiliyinin inkişafının əsası 1930-cu ildə Astara rayonunda ümumi sahəsi 800 hektar olan Subtropik Bitkilər Sovxozunun yaradılması ilə qoyulmuş və onun 500 hektara yaxın ərazisində limon, naringi, portağal, feyxoa, çay, nəcib dəfnə və s. bitkilərin becərilməsinə başlanılmışdır.

1930-cu ildən etibarən ölkədə sitrus meyvə bağları sahələrinin planlı surətdə artırılmasına başlanılmış, bu sahənin inkişafı 70–80-ci illərdə daha da sürətlənmişdir. Bu dövrdə Lənkəran iqtisadi rayonunda aqrar sənaye kompleksinin inkişafı ilə bağlı həyata keçirilən uğurlu siyasət nəticəsində bölgədə digər subtropik bitkilərlə yanaşı, sitrus bitkilərinin sahələri də əhəmiyyətli dərəcədə genişləndirilmişdir.

90-cı illərin əvvəllərində kənd təsərrüfatının digər sahələrində olduğu kimi, sitrus meyvəçiliyi sahəsində də tənəzzül yaşanmış, sitrus meyvə bağlarının bir qismi ləğv edilərək yerində dənli-taxıl, tərəvəz və digər bitkilərin becərilməsinə başlanılmışdır. Bununla belə, mövcud bağların konstruksiyasının dəyişdirilməsi hesabına məhsul istehsalının kəskin azalması baş verməmişdir.

Rəsmi statistik məlumatlara əsasən, ölkəmizdə meyvə bağlarının sahəsi 2000-ci ilə qədər sürətlə azalmağa başlamış, 2000-2008-ci illər ərzində azalma nisbətən səngimiş, 2009-cu ildən etibarən kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyinin daha da gücləndirilməsi sitrus meyvə bağlarının sürətlə genişlənməsinə səbəb olmuşdur.

2017-ci ildə ölkədə sitrus bağlarının ümumi sahəsi 2010-cu illə müqayisədə 1,9 dəfə artaraq 3191,2 hektar təşkil etmiş, məhsul istehsalı isə 2,2 dəfə artaraq 42,8 min tona çatdırılmışdır. 2017-ci ildə ölkəmizə 18,9 milyon ABŞ dolları dəyərində 30,6 min ton sitrus meyvələri, o cümlədən 12,6 min ton portağal, 11,9 min ton limon, 4,6 min ton naringi, 1,5 min ton qreypfrut və digər sitrus meyvələri idxal edilmişdir.

“Azərbaycan Respublikasında sitrus meyvələri, çay və çəltik istehsalının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 12 sentyabr tarixli 3227 nömrəli Sərəncamı sitrus meyvəçiliyinin inkişafı üçün

əlverişli mühit yaratmışdır.

### 3. Dünyada sitrus meyvəçiliyinin inkişaf meyilləri

Vətəni Şərqi Asiya olan sitrus meyvələrinin (portağal, limon, naringi, qreypfrut və s.) istehsalına XIX əsrdə ABŞ-da başlanılmış və sürətlə digər ölkələrə də yayılmışdır. Sitrus meyvələri dünyada ən çox yetişdirilən meyvə qrupuna daxil olmaqla, əsasən 40 dərəcə cənub və şimal enlikləri arasında yerləşən tropik və subtropik iqlimə malik ölkələrdə becərilir. Bu bitkilərin meyvələrindən qida məhsulları kimi, qabıqlarından, yarpaqlarından və çiçəklərindən alınan uçucu efir yağlarından isə ətriyyat istehsalında geniş istifadə edilir.

BMT-nin Kənd Təsərrüfatı və Ərzaq Təşkilatının (FAO) məlumatlarına əsasən, son on il ərzində dünyada sitrus bitkilərinin əkin sahələri orta hesabla 24 faiz artaraq, təxminən 9 milyon hektar təşkil etmişdir. 2014-cü ildə dünya ölkələri üzrə 139,8 milyon tona yaxın sitrus meyvələri istehsal olunmuşdur ki, bunların da təxminən 52 faizini (72,3 milyon ton) portağal, 22 faizini (30,4 milyon ton) naringi, 12 faizini (16,3 milyon ton) limon, 6 faizini (8,4 milyon ton) qreypfrut, 9 faizini (12,5 milyon ton) isə digər sitrus meyvələri təşkil etmişdir.

Dünyada istehsal olunan sitrus meyvələrinin 24 faizi Çin Xalq Respublikasının, 15 faizi Braziliyanın, 8 faizi ABŞ-ın, 6 faizi Hindistanın, 5 faizi Meksikanın, 4 faizi İspaniyanın, 3,7 faizi Türkiyənin, 3 faizi Misirin payına düşür.

FAO-nun məlumatlarına əsasən, Avropa ölkələrinə ixracatçılar tərəfindən ildə 13,5 milyard ABŞ dolları dəyərində 15 milyon tona yaxın və ya istehsal olunmuş məhsulun 10-15 faizi həcmində sitrus meyvələri ixrac edilir. Hazırda İspaniya (3,6 milyard ABŞ dolları), ABŞ (1,0 milyard ABŞ dolları), Çin Xalq Respublikası (970 milyon ABŞ dolları) və Cənubi Afrika Respublikası (900 milyon ABŞ dolları) ölkələri dünyanın ən böyük sitrus meyvələri ixracatçıları hesab olunurlar.

Rusiya Federasiyası, Fransa, Almaniya, Hollandiya və Böyük Britaniya sitrus meyvələrinin ən çox idxal edildiyi ölkələrdir. Azərbaycan məhsullarının da ixrac olunduğu Rusiya Federasiyası tərəfindən 2016-cı ildə 1,2 milyard ABŞ dolları həcmində sitrus meyvələri idxal edilmişdir ki, bu da dünya üzrə idxal edilmiş məhsulların 9 faizini təşkil edir.

### 4. Dövlət Proqramının məqsədi və vəzifələri

4.1. Dövlət Proqramının məqsədi ölkədə sitrus meyvələrinə olan tələbatın daha dolğun ödənilməsi, istehsal edilmiş məhsulların ixracının artırılması və kənd əhalisinin məşğulluq səviyyəsinin və maddi rifahının yüksəldilməsi üçün sitrus meyvəçiliyinin inkişafını stimullaşdırmaqdan ibarətdir.

4.2. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

4.2.1. sitrus meyvəçiliyinin inkişaf etdirilməsi üzrə institusional tədbirlərin həyata keçirilməsi;

4.2.2. sitrusçuluq sahəsində standartların təkmilləşdirilməsi və beynəlxalq tələblərə uyğunlaşdırılması;

4.2.3. sitrus meyvəçiliyi sahəsində elmi təminatın və kadr potensialının gücləndirilməsi;

4.2.4. sitrus meyvəçiliyi sahəsində infrastruktur təminatının yaxşılaşdırılması;

4.2.5. sitrus meyvəçiliyi sahəsində innovativ texnologiyaların tətbiqinin dəstəklənməsi;

4.2.6. sitrus meyvəçiliyi sahəsində yerli və xarici investisiyaların cəlb edilməsinin təşviqi;

4.2.7. sitrus meyvə məhsulları üzrə idxalın əvəzlənməsi səviyyəsinin yüksəldilməsi;

4.2.8. sitrus meyvə məhsullarının ixracının dəstəklənməsi və təşviqi;

4.2.9. sitrus meyvəçiliyi sahəsində fəaliyyət göstərən kiçik ailə kəndli və fermer təsərrüfatlarının könüllülük əsasında kooperasiyasının təşviqi.

### 5. Sitrus meyvəçiliyinin inkişafının əsas istiqamətləri

5.0. Azərbaycanda sitrus meyvəçiliyinin inkişafı sahəsində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün aşağıdakı istiqamətlərdə zəruri tədbirlərin görülməsi nəzərdə tutulur:

5.0.1. sitrus meyvə bitkilərinin əkin sahələrinin genişləndirilməsi;

5.0.2. sitrus meyvə bitkilərinin yetişdirilməsi üçün infrastruktur təminatının yaxşılaşdırılması;

5.0.3. sitrus meyvə bitkilərinin tinglik təsərrüfatlarının yaradılmasının dəstəklənməsi və maddi-texniki bazasının gücləndirilməsi;

5.0.4. sitrus meyvələri istehsalı sahəsində müasir texnika ilə təminatın gücləndirilməsi;

5.0.5. sitrus meyvələrinin rəqabət qabiliyyətinin artırılması və ixracının təşviqi, sahə standartlarının beynəlxalq tələblərə uyğunlaşdırılması.

### 6. Dövlət Proqramının maliyyələşmə mənbələri

6.0. Dövlət Proqramı üzrə tədbirlərin icrasının aşağıdakı mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulur:

6.0.1. dövlət büdcəsi;

6.0.2. büdcədənkənar fondlar;

6.0.3. Azərbaycan Respublikasının *Sahibkarlığın İnkişafı* Fondu, "Azərbaycan İnvestisiya Şirkəti" ASC, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında *Aqrar Kredit və İnkişaf Agentliyinin* vəsaitləri;[2]

6.0.4. yerli və xarici investisiyalar;

6.0.5. qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

### 7. Dövlət Proqramının icrasından gözlənilən nəticələr

7.1. Dövlət Proqramının həyata keçirilməsi Azərbaycanda sitrus meyvəçiliyi ənənələrinin inkişaf etdirilməsinə, sitrus meyvələrinə olan daxili tələbatın ödənilməsinə və idxaldan asılılığın azaldılmasına, sitrus meyvəçiliyi ilə məşğul olan rayonlarda əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına təsir göstərməklə ölkənin aqrar potensialını gücləndirəcəkdir.

7.2. Dövlət Proqramının icrası nəticəsində 2025-ci ilədək sitrus meyvələri istehsalı həcminin 100 min tona çatdırılması nəzərdə tutulur.

### 8. Dövlət Proqramının həyata keçirilməsi üzrə

### TƏDBİRLƏR PLANI

| Sıra-si | Tədbirin adı | İcra müddəti | İcraçılar |
|---|---|---|---|
| **8.1. Sitrus meyvəçiliyinin inkişafı üzrə institusional tədbirlər** | | | |
| 8.1.1. | Sitrusçuluq sahəsində mövcud standartların beynəlxalq tələblərə uyğunlaşdırılması | 2018–2020 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Kənd Təsərrüfatı Nazirliyi |
| 8.1.2. | Sitrusçuluq sahəsində fəaliyyət göstərən kiçik ailə kəndli və fermer təsərrüfatlarının könüllülük əsasında kooperasiyasının təşviqi | 2018–2021 | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları |
| 8.1.3. | Sitrus meyvələrinin istehsalı və ixracı sahəsində mütərəqqi təcrübəsi olan xarici şirkətlərlə əlaqələrin genişləndirilməsi | 2018–2025 | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Xarici İşlər Nazirliyi |
| 8.1.4. | Sitrusçuluq sahəsində mütərəqqi sığorta mexanizminin yaradılması | 2018–2019 | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Bazarlarına Nəzarət Palatası |
| **8.2. Sitrus meyvəçiliyi sahəsində elmi təminatın və kadr potensialının gücləndirilməsi** | | | |
| 8.2.1. | Sitrusçuluqla məşğul olan müvafiq elmi tədqiqat müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi | 2018–2020 | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Maliyyə Nazirliyi, Elmin İnkişafı Fondu |
| 8.2.2. | Peşə-ixtisas və ali təhsil müəssisələrində sitrus meyvəçiliyi sahəsi üçün ixtisaslı kadrların hazırlanmasının təşkili | 2018–2022 | Kənd Təsərrüfatı Nazirliyi, Təhsil Nazirliyi |
| 8.2.3. | Sitrus bitkiləri ilə bağlı elmi tədqiqatların nəticələrinin tətbiqinə dair təkliflərin hazırlanması | 2018–2025 | Kənd Təsərrüfatı Nazirliyi, *Elm və Təhsil Nazirliyi*[3] |
| **8.3. Sitrus meyvəçiliyinin infrastruktur təminatının yaxşılaşdırılması** | | | |
| 8.3.1. | Yeni ərazilərdə sitrus meyvə bağlarının salınması məqsədi ilə torpaqların müəyyən edilərək əkin dövriyyəsinə cəlb edilməsi üçün tədbirlərin görülməsi | 2018–2021 | Nazirlər Kabineti, Kənd Təsərrüfatı Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 8.3.2. | Sitrus meyvə bağlarının su təminatının yaxşılaşdırılması və yeni sahələrin əkin dövriyyəsinə cəlb edilməsi üçün su təsərrüfatı obyektlərinin təmiri, bərpası, yenidən qurulması və tikintisi | 2018–2025 | Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC, Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi |
| 8.3.3. | Sitrus meyvə bitkilərinin tinglik təsərrüfatının yaradılmasının və maddi-texniki bazasının gücləndirilməsinin dəstəklənməsi | 2018–2021 | Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası |
| 8.3.4. | Sitrus meyvələrinin saxlanılması, çeşidlənməsi və qablaşdırılması üzrə fəaliyyət göstərən müəssisələrin maddi-texniki bazasının gücləndirilməsi və yenilərinin yaradılmasının dəstəklənməsi | 2018–2021 | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi |
| **8.4. Sitrus meyvəçiliyi sahəsində dövlət dəstəyi tədbirləri** | | | |
| 8.4.1. | Yeni sitrus meyvəçiliyi təsərrüfatının yaradılmasının dəstəklənməsi | 2018–2025 | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi |
| 8.4.2. | Sitrus meyvələrinin istehsalı sahəsində fəaliyyət göstərən fermerlərə müasir aqrotexniki, aqrokimyəvi, bitki mühafizəsi, logistika və sair sahələrdə məsləhət xidmətlərinin təşkili | 2018–2025 | Kənd Təsərrüfatı Nazirliyi, *Elm və Təhsil Nazirliyi*, İqtisadiyyat Nazirliyi, “ABAD” publik hüquqi şəxs |

| | | | |
|---|---|---|---|
| 8.4.3. | Sitrus meyvə istehsalı və emalı sahələrinə yerli və xarici investisiyaların cəlb edilməsi istiqamətində tədbirlər görülməsi | 2018–2025 | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi |
| 8.4.4. | Müasir suvarma sistemlərinin tətbiqinin təşviq edilməsi | 2018–2025 | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC |
| 8.4.5. | Sitrusçuluq sahəsinin texnika, maşın və mexanizmlərlə təminatının yaxşılaşdırılması | 2018–2025 | Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi |
| 8.4.6. | Sitrus meyvə bağlarının mineral və üzvi gübrələrlə təminatının yaxşılaşdırılması | 2018–2025 | Kənd Təsərrüfatı Nazirliyi |
| **8.5. Sitrus meyvəçiliyi sahəsində marketinq fəaliyyətinin gücləndirilməsi və ixracın təşviqi** | | | |
| 8.5.1. | Sitrus meyvə istehsalçılarının yerli və beynəlxalq bazarlarda marketinq fəaliyyətinin dəstəklənməsi, sitrus meyvələri ixracının təşviqi | 2018–2025 | İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi |
| 8.5.2. | Sitrus məhsulları üzrə ölkə və beynəlxalq əhəmiyyətli sərgi, yarmarka, konfrans, festivallarda iştirak, qabaqcıl nailiyyətlərə görə mükafatlandırma və digər tədbirlərin həyata keçirilməsi | 2018–2025 | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, yerli icra hakimiyyəti orqanları |
| 8.5.3. | Sitrus məhsullarının istehsalı və emalı ilə məşğul olan yerli şirkətlər barədə məlumatların Azərbaycanda istehsal olunan malların vahid məlumat bazası üzrə portalda yerləşdirilməsi və mütəmadi olaraq yenilənməsi | 2018–2025 | Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 27 noyabr 2018-ci il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2287**)
2. 21 may 2019-cu il tarixli **1188** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 909**)
3. 16 noyabr 2021-ci il tarixli **2998** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 17 noyabr 2021-ci il, 248 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 11, maddə 1235**)
4. 3 mart 2023-cü il tarixli **3780** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 3 mart 2023-cü il, "Xalq" qəzeti, 5 mart 2023-cü il, 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 3, maddə 389**)


## SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 16 noyabr 2021-ci il tarixli **2998** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Xalq" qəzeti, 17 noyabr 2021-ci il, 248 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 11, maddə 1235**) ilə "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı"nın 2-ci hissəsinin birinci abzasında "**Lənkəran**" sözü "**Lənkəran–Astara**" sözləri ilə əvəz edilmişdir.

[2] 27 noyabr 2018-ci il tarixli **374** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2287**) ilə "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın 6.0.3-cü yarımbəndində "**Sahibkarlığa Kömək Milli**" sözləri "**Sahibkarlığın İnkişafı**" sözləri ilə əvəz edilmişdir.

21 may 2019-cu il tarixli **1188** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 5, maddə 909**) ilə "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın 6.0.3-cü yarımbəndində "**Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidmətinin** " sözləri "**Aqrar Kredit və İnkişaf Agentliyinin**" sözləri ilə əvəz edilmişdir.

[3] 3 mart 2023-cü il tarixli **3780** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 3 mart 2023-cü il, "Xalq" qəzeti, 5 mart 2023-cü il, 50, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, 3, maddə 389**) ilə "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın "8. Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı"nın 8.2.3-cü və 8.4.2-ci yarımbəndlərinin "İcraçılar" sütununda "**Azərbaycan Milli Elmlər Akademiyası**" sözləri "**Elm və Təhsil Nazirliyi** " sözləri ilə əvəz edilmişdir.